AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Pərakəndə satış və ictimai iaşə xidməti zamanı alıcıdan POS-terminal vasitəsilə nağdsız qaydada ödənişlər qəbul edirsiniz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

- Nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə gəlir (mənfəət) və sadələşdirilmiş vergi ödəyicilərinə alıcılardan nağdsız qaydada qəbul edilmiş ödənişlər üzrə azadolmalar tətbiq olunur.
  Belə ki, pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən:
- tətbiq etdikləri vergitutma sistemindən asılı olaraq büdcəyə ödənilməli **mənfəət, gəlir və sadələşdirilmiş verginin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin** ümumi gəlirdəki **xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılır**.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Onu da bilməlisiniz ki,

- Bu güzəştin alınması hüququ müəyyən edilərkən vergi orqanında uçotda olan şəxslər tərəfindən POS-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır.

## Məsələn:

- Gəlir - 1.000 manat, xərc - 300 manat, nağdsız ödəniş - 500 manat.
- Gəlir vergisi: (1.000-300)*20%=140 manat;
- Azaldılan vergi: 140*500/1.000*25%=17,5 manat;
- Büdcəyə ödənilməlidir: 140-17,5=122,5 manat.